## Normativ hüquqi aktların müddəalarının və tələblərinin izah edilməsi məqsədilə əsas hüquqi məlumatlar

- Narkotik vasitələri və ya psixotrop maddələri (bundan sonra narkotiklər) az miqdarda əldə etmə, saxlama, hazırlama, emal etmə və daşıma (İnzibati Xətalar Məcəlləsinin 206-cı maddəsi) – 2 ayadək həbs;
- Narkotikləri xeyli miqdarda əldə etmə, saxlama, hazırlama, emal etmə, daşıma (Cinayət Məcəlləsinin 234.1-ci maddəsi) 3 ilədək azadlıqdan məhrum etmə;
- Narkotikləri külli miqdarda əldə etmə, saxlama, hazırlama, emal etmə, daşıma (Cinayət Məcəlləsinin 234.1-1-ci maddəsi) 3 ildən 8 ilədək azadlıqdan məhrum etmə;
- Narkotikləri az və xeyli miqdarda satma və ya satış məqsədilə əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə (Cinayət Məcəlləsinin 234.2-ci maddəsi) 3 ildən 7 ilədək azadlıqdan məhrum etmə;
- Narkotiklərin hazırlanmasında və emalında istifadə etmək məqsədilə prekursorları satma, yaxud prekursorları eyni məqsədlə xeyli miqdarda hazırlama, əldə etmə, saxlama, göndərmə və ya daşıma (Cinayət Məcəlləsinin 234.3-cü maddəsi) 3 ilədək azadlıqdan məhrum etmə;
- Yetkinlik yaşına çatmayanlara narkotikləri satma, narkotiklərin satışı ilə bağlı əməlləri təhsil və tibb müəssisələrində, cəzaçəkmə müəssisələrində və həbs yerlərində törətmə (Cinayət Məcəlləsinin 234.3-1-ci maddəsi) 4 ildən 8 ilədək azadlıqdan məhrum etmə;
- Narkotiklərin satışı ilə bağlı əməlləri qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən, təkrar, kütləvi informasiya vasitələrində, internet və sosial şəbəkələrdə törətmə (Cinayət Məcəlləsinin 234.4-cü maddəsi) 5 ildən 12 ilədək azadlıqdan məhrum etmə;
- Narkotiklərin dövriyyəsi ilə bağlı əməlləri xüsusilə külli miqdarda törətmə CM-in 2344-1-ci maddəsi) – 8 ildən 15 ilədək azadlıqdan məhrum etmə ilə cəzalandırılır.
- Narkotikləri kultivasiya etmə (əkmə və yetişdirmə – Cinayət Məcəlləsinin 237-ci maddəsi) – 3 ildən 10 ilədək azadlıqdan məhrum etmə ilə cəzalandırılır.
- Narkotikdən istifadəyə təhrik etmə (Cinayət Məcəlləsinin 236-cı maddəsi) – 2 ildən 12 ilədək azadlıqdan məhrum etmə ilə cəzalandırılır.
- Narkotikləri istehlak (istifadəsi) üçün tiryəkxana saxlama (Cinayət Məcəlləsinin 238-ci maddəsi) – 4 ildən 8 ilədək azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**"MƏLUMATLI OL, CİNAYƏT İŞTİRAKÇISI OLMA!"**

Azərbaycan Respublikasının
Narkomanlığa və Narkotik Vasitələrin
Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə
Dövlət Komissiyasının Daimi fəaliyyət göstərən İşçi Qrupu

# MƏLUMATLI OL, CİNAYƏT TÖRƏTMƏ!



Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə qanunla tənzimlənir.

Qanunvericiliyin tələblərini bilməli və onlara əməl etməliyik!

## 802
## QAYNAR XƏTT

Narkotiklərlə bağlı hər hansı məlumatınız varsa, zəng edin. Sizin anonimliyiniz qorunur.

**www.nmdk.gov.az**

**NARKOTİKLƏRİN QANUNSUZ DÖVRİYYƏSİ CƏMİYYƏT VƏ GƏLƏCƏK ÜÇÜN TƏHLÜKƏDİR.**